Ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü ilə bağlı respublikamızda bu dəfəki anım tədbirləri də böyük ehtiram coşqusu, insan axını ilə müşayiət olundu. Ölkənin baş mənəvi ziyarətgahına çevrilən Fəxri xiyabanda ulu öndərin unudulmaz xatirəsini yad edərkən deputat həmkarlarımla birgə 25 illik müstəqillik tariximizin ağrılı, keşməkeşli anlarını da ürək yanğısı ilə xatırladıq. Xaosdan, böhrandan sabitliyə və tərəqqiyə keçidin memarı olan böyük şəxsiyyətin milli dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri gözlərimiz önündən yenidən kino lenti tək keçirdi…

Ön sırada Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın sükanı arxasında fədakarlıq və mərdliklə dayanmış İlham Əliyev qürurla irəliləyirdi. Liderimizlə bərabər hər birimiz ulu öndərin ideyalarının layiqincə yaşadılmasının və daha da inkişaf etdirilməsinin fəxrini yaşayırdıq…

Əslində, milyonlarla insan da bugünkü sabitlik, firavanlıq şəraitində yaşadığına görə daim böyük öndərin ruhu qarşısında minnətdarlıq duyğusunu ifadə edir.

Yəqin ki, gələcək nəsillər bizə məhz ümummilli lider Heydər Əliyevin müasiri olduğumuza görə qibtə edəcəklər. Xalqın ötən əsrdə yetişdirdiyi bu böyük şəxsiyyətin müasiri olmaq, onun vətən, xalq naminə əzmkar fəaliyyətinin hər bir mərhələsini izləmək, əslində, Azərbaycanın son yarım əsrlik tarixinin bələdçisi, cığırdaşı olmaq deməkdir. Həmin tarixə boylandıqca, bu həqiqəti daha aydın dərk edir, Heydər Əliyev dühasının milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini aydın görürük.

Əsl həqiqət müqayisədə üzə çıxır. Elə bu həqiqət işığında da dövrün ictimai-siyasi proseslərinə obyektiv nəzər salmaq imkanı yaranır. Bu gün Azərbaycandan ərazicə çox da uzaq olmayan məkanlardakı qanlı toqquşmaları, müharibələri, çoxsaylı insan tələfatlarını üzüntü və ürək ağrısı ilə izləməkdən savayı çarəmiz yoxdur. Yaxın Şərqdə, ərəb dünyasında davam edən qanlı təlatümlər insanı dəhşətə gətirir. Əslində, baş verən hadisələri kənar müdaxilələrin məntiqi nəticəsi kimi izah edənlər də kifayət qədər haqlı görünürlər. "Demokratiya çətiri" altında bəzi dövlətlər dünyanın enerji resursları üzərində nəzarəti təmin etmək, eyni zamanda, geosiyasi iddialarını gerçəkləşdirmək yarışına giriblər. Nəticə ürək ağrıdan olsa da, oxşardır: ölkələrin vətəndaş müharibəsi vəziyyətinə düşməsi, dağıdılaraq tar-mar edilməsi, həyatın iflic olması, yüz minlərlə günahsız insanın ölümü, ev-eşiyini ataraq qaçqına çevrilməsi...

Günümüzün bu fəlakətlərini xatırladıqca, bir anlığa ötən əsrin 90-cı illərinin Azərbaycanını yada salıram. Və tam oxşarlıq tapıram. Bəli, 23 il, 25 il öncə məmləkətimiz də məhz bu sınaqlardan keçirdi, bu təlatümləri yaşayırdı, məşəqqətli qaçqın-köçkün axınına şahidlik edirdi... 1993-cü ilin Azərbaycanı bu günün məlum Yaxın Şərq ölkələrinin haradasa eynisidir.

Şükürlər olsun ki, biz bu dağıdıcı proseslərdən tam 23 ildir tamamilə kənardayıq. Bu ağrılı-acılı, böhranlı günləri çoxdan geridə qoymuşuq. Lakin unutmamalıyıq ki, heç də uzaq olmayan tarix bizim də taleyimizdə müəyyən acılı izlər buraxıb. 1991-1993-cü illərin məşəqqətlərini bu gün xatırlamaq belə, istəmədiyimiz keçmişə çevrilsə də, sayıqlığımızı heç zaman itirməməliyik. Unutmamalıyıq ki, həmin dövrdə Azərbaycan siyasi hakimiyyət naminə qardaş qırğınına çıxan çoxsaylı silahlı qüvvələrin "eksperiment meydanı"na çevrilmişdi. Unutmamalıyıq ki, ölkə parçalanma həddinə gətirilmiş, Gəncədə, Lənkəranda, Qusarda separatizm meyilləri baş qaldırmışdı. Unutmamalıyıq ki, insanlar bir parça çörəklə imtahana çəkilir, iqtisadi tənəzzül və mənəvi böhran dərinləşirdi.

Məgər o illərdə siyasət meydanına atılmış naşı və yarıtmaz qüvvələr hakimiyyətə gəlmək üçün Azərrbaycanı hərraca çıxarmamışdılarmı? Məgər dövlətçiliyimiz 5-6 "siyasi macəraçı"nın, "çayxana qəhrəmanları"nın əlində oyuncağa çevrilməmişdimi? Möhtac qaldığı arpa çörəyini almaq üçün saatlarla növbəyə duran, biri-biri ilə mücadilə aparan azərbaycanlılar o illərin üzqaraldan mənzərələrini axı, necə qorxusuz xatırlasınlar? Ərazilərimizin 20 faizinin işğalı, 1 milyon həmvətənimizin qaçqına, məcburi köçkünə çevrilməsi o illərin acı gerçəkliyi deyilmi?

Bəli, Yaxın Şərqdə cərəyan edən bəzi hadisələr 90-cı illərin əvvəllərində Azərbaycan üçün də xarakterik idi. Lakin müdrik və qədirbilən xalqımız bu vəziyyətdən çıxış yolları üzərində çox da düşünmədi. Əksəriyyət bu reallığı da düzgün dəyərləndirdi ki, Azərbaycanı üzləşdiyi bu fəlakətlərdən, faciələrdən yalnız Heydər Əliyev kimi lider çıxara bilər. Ulu öndər can verməkdə olan dövlətin həyatına xilaskar kimi qayıtdı. Dağıdıcı proseslərin, vətəndaş müharibəsinin qarşısı qətiyyətlə alındı, silahlı dəstələr zərərsizləşdirildi. Sabitlik və hüquq qaydaları tədricən bərpa edildi, yeni ictimai-siyasi şəraitə uyğun olaraq cəmiyyət həyatının bütün sahələrində islahatlara başlanıldı.

Dövlət müstəqilliyinin ilk illərində yaşadığımız böyük problemlər indi yaddaşımızın acı xatirəsinə çevrilib. Həmin dövrün miskin, zəifləmiş, iqtisadiyyatı və mənəvi mühiti sarsılmış Azərbaycanından əsər-əlamət qalmayıb. Bu günün Azərbaycanı Cənubi Qafqazın və ümumən Avropanın əsas enerji və iqtisadi-siyasi güc mərkəzlərindən biri kimi çıxış edən, tam müstəqil siyasət yürüdən qüdrətli ölkədir. Bu Azərbaycanın qurucusu isə onu davamlı inkişaf yoluna çıxaran, gələcəyi üçün etibarlı zəmin hazırlayan Heydər Əliyev dühasıdır!

Qürur və fəxarətlə deyə biləcəyimiz bir danılmaz həqiqət də var. Ulu öndərin böyük şücaətlə fəlakətlərdən qoruduğu və davamlı inkişaf yoluna çıxardığı respublikamız son 13 ildə məhz İlham Əliyevin fitri idarəçilik və liderlik keyfiyyətləri sayəsində özünün parlaq inkişaf mərhələsini yaşayır. Bəli, müasir Azərbaycan ötən illərdə inanılmaz nailiyyətlərə imza atıb. Kənar təzyiqləri inamla dəf edib, müstəqil siyasət yürüdüb. Azərbaycan bu müddətdə qarşıya qoyduğu hədəflərə inamla yetişib.

Bir sözlə, Azərbaycanı çoxəsrlik dövlətçilik tarixinin ən möhtəşəm dövrünə çatdıran lider məhz İlham Əliyevdir!

Düşünürəm ki, dövlət müstəqilliyinin 25-ci ildönümü tamam olmuş Azərbaycanın ən böyük uğuru da budur!

Əbədiyaşar şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü "Güclü dövlət-müstəqil siyasət" tezisi məhz İlham Əliyevin prezidentliyi dövründə tam mahiyyəti ilə reallaşıb!

Ulu öndər dühasının əsasını qoyduğu islahatların müasir dövrdə real hədəflərə yetişməsi dövlət müstəqilliyinin ictimai şüurda milli ideya olaraq qəbulunu şərtləndirib. Çətin və keşməkeşli, fəqət, şərəfli müstəqillik tariximizin ötən 25 ilinə nəzər salarkən bu qənaətə gəlirəm ki, böyük qürur və fəxarətlə qarşılaya biləcəyimiz uğurlarımız çoxdur. İllərin müqayisəsi fonunda hansı ağır sınaqlardan, çətinliklərdən, təlatümlərdən çıxdığımızın daha çox fərqində oluruq. Geridə qalan illər tarix baxımından böyük olmasa da, xaosdan sabitliyə, tərəqqidən inkişafa, səfalətdən rifaha keçidin möhtəşəm salmanəsini özündə əks etdirir. Böyük çətinliklərə baxmayaraq Azərbaycan xalqı əsrlər boyu həsrətində olduğu müstəqilliyi bu 25 ildə qazandı və əzmlə qoruyub saxlaya bildi. Məhz bu baxımdan dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü vətənini, xalqını sevən hər bir azərbaycanlı üçün möhtəşəm tarixdir. Dövlət müstəqilliyi özlüyündə hər bir vətəndaş üçün ən böyük milli sərvətdir.

Hər bir dövlətin sabit və davamlı inkişafı lider fenomeni ilə bağlıdır. Lider fitri istedaddır. Bu istedad olmasa, ən mükəmməl məktəblər, təcrübələr belə yetərincə nəticə verə bilməz. Tarix liderlərin övladlarının lider statusuna yüksəlməsinə çox şahidlik edib. Fəqət, onların heç də hamısı sələflərinin siyasi mirasına sahib çıxa, irsini yaşada bilməyib. Verilən əmanəti qoruya bilməyib, siyasi səhnədən izsiz-soraqsız itib.

Amma ölkə rəhbərimizin timsalında biz tam fərqli və qürurverici hadisəni görürük. Əvvəla, İlham Əliyev hələ Prezident seçilməmişdən öncə bu şərəfli missiyanı həyata keçirməyə layiq olduğunu sübut etmişdi. Əslində, ulu öndərin "Mən ona özüm qədər inanıram" bəyanatından öncə Azərbaycan xalqı "Biz İlham Əliyevə tam etimad bəsləyir və onu Heydər Əliyev ideyalarının ən peşəkar daşıyıcısı sayırıq" çağırışını səsləndirmişdi! Yəni, İlham Əliyevin Prezidentliyə gedən yolu tarixin, taleyin və xalqın seçimi idi!

Digər tərəfdən, İlham Əliyev sələfindən aldığı əmanəti - Azərbaycanı elə qüdrətli səviyyəyə yüksəltdi ki, onun fəaliyyəti tariximizin ən şərəfli səhifələrinə müəlliflik edir və əsrlər sonra da böyük ehtiram və iftixarla xatırlanacaq!

Azərbaycanın timsalında biz liderin fərdi idarəçilik xüsusiyyətlərinin xalqın taleyində hansı rolu oynadığını əyani şəkildə görürük. Bu qənaətdəyəm ki, əsl lider xalqı öz ideyaları ətrafında birləşdirir, dövlətin davamlı uğurlarını təmin edir, hər bir fərdin maraq və mənafeyinin təminatçısı qismində çıxış edir. Azərbaycan Prezidenti məhz bu cür liderlik xüsusiyyətlərinə malik olduğuna, Heydər Əliyevin ölməz ideyalarını layiqincə yaşatdığına görə ötən 13 ildə xalqın sevimlisinə çevrilib!

Siyasət arenasında irs-varislik əlaqələri daim aktual olub. Fikrimcə, möhtərəm Prezidentimizin istər şəxsi həyatında, istər siyasi fəaliyyətində və dövlət idarəçiliyində qazandığı uğurları təmin edən bir başlıca amil var: Heydər Əliyev irsini siyasi varis kimi yaşatmaq və ona daim sadiq olmaq!

Şəxsən bu qənaətdəyəm ki, ölkə rəhbərimiz ümummilli lider Heydər Əliyevin genetik davamçısı statusunun səfasını yox, həm də məhz cəfasını çəkdi. Belə bir dahi şəxsiyyətin övladı olmaq, əslində, həm də böyük məsuliyyət və özünənəzarət tələb edir. O, hələ 80-ci illərin sonlarına doğru Heydər Əliyev ailəsinin üzvü statusunun çətinlik və məhrumiyyətlərini taleyində yaşamalı olub. Məhz həmin dövrdə işindən uzaqlaşdırıldı, ədalətsiz təqiblərə, mənəvi sarsıntılara məruz qaldı. O, Azərbaycan xalqının ən ağır günlərində - 1990-cı ilin məlum qanlı yanvar hadisələrindən dərhal sonra ümummilli liderlə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək əsl istiqlal hərəkatı başladanlardan biri oldu.

İlham Əliyev elə o vaxtdan - 1990-cı ildən bu günədək ön sırada Azərbaycanın mücadiləsini dayanmadan, yorulmadan, böyük vətənpərvərliklə, fədakarlıqla aparır!

O, hələ prezident seçilməmişdən xeyli əvvəl Azərbaycanın siyasət arenasında xalqımızın milli maraqlarını qorumaq əzmi və iradəsi sayəsində parladı. Bu məqamda onun "Əsrin müqaviləsi"nin imzalanmasındakı tarixi xidmətlərini xüsusi xatırlatmaq istərdim. O zaman ARDNŞ-nin birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev Qərb şirkətlərini "Əsrin müqaviləsi"nin zəruriliyinə inandırmaq üçün 7 ay ərzində - fevraldan sentyabradək Bakıdan Hyüstona, Moskvadan Londona qədər böyük coğrafiyada əzmkar fəaliyyət göstərdi və xalqımızın maraqlarının maksimum dərəcədə təmin olunmasına nail oldu.

Neftimizin taleyinin müzakirə olunduğu masanın bir tərəfində dünyanı bölüşdürən əsas güclər, onlarla neft dövlətini özünə tabe etdirmiş transmilli korporasiyalar, qarşı tərəfində isə dünya siyasi səhnəsinə yeni çıxan, büdcəsi tamamilə boş olan, sıxıntılar içində yaşayan bir dövlət dayanırdı. İlham Əliyev fenomeninin diplomatik məharəti, qarşısındakını inandırmaq bacarığı sayəsində bu mübarizədə qalib Azərbaycan dövləti oldu. 33 yaşlı gənc azərbaycanlının qarşısında dayanan bu güclər onun böyük diplomatik məharəti nəticəsində Azərbaycanın tələbləri ilə razılaşmağa məcbur oldular.

Aradan illər keçib. Azərbaycan dövlətinin rəhbəri - Prezidenti statusu kimi ağır yükü çiyinlərində layiqincə daşıyan İlham Əliyev bu gün də mübariz ovqatdadır!

Bu məmləkətin uğurlarına sevinə bilməyən bəzi daxili və xarici qüvvələr xoşniyyətli olmadıqlarını çoxdan təsdiq ediblər. Dünyanı ədalətsizliyə sürükləyən məlum güclər Azərbaycanın dünyada müstəqil siyasət yürüdən azsaylı dövlətlərdən biri olmasını heç cür "həzm etmirlər". Onun liderinin müstəqil siyasəti çoxlarının qəlbindən daş kimi asılıb. Biz bu gün adı müstəqil olub, başqa dövlətlərin "for-postu"na çevrilən, müstəqil qərarlar qəbul edə bilməyən, diktə altında olan dövlətləri uzaqda axtarmırıq. Havadarlarının dəstəyi ilə tarixi torpaqlarımızı hələ də işğal altında saxlayan, təcavüzkar siyasətindən əl çəkməyən Ermənistanın timsalında formal müstəqilliyin nə demək olduğu cəmiyyətimizə yaxşı məlumdur. Bədxah qonşularımızdan fərqli olaraq Azərbaycan bu gün Cənubi Qafqaz regionunda tamamilə müstəqil siyasət yürüdən, öz sözü, mövqeyi, prinsipial xarici siyasəti olan dövlətdir. Azərbaycanla hesablaşır, onun mövqeyini, sülh və tərəqqiyə xidmət edən səmərəli təşəbbüslərini ciddiliklə nəzərə alırlar.

Əzəmətli tarixə çevrilmiş 25 illik inkişaf yolunun ən parlaq nəticəsi həm də ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Əlbəttə, bu, heç də asan qazanılmış nailiyyət deyil. Bu 25 ildə respublikanın milli inkişaf strategiyası, vahid ideologiyası formalaşıb. Qloballaşma şəraitində respublikamızın milli özünəməxsusluğu, multikultural dəyərləri qorunur. Milli-mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlər inkişaf etdirilir. Böyük dövlətlərlə və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırır.

Bu gün İlham Əliyevin lider kimi ən böyük uğurlarından biri ölkəmizin maraqlarını qətiyyətlə müdafiə edə bilməsindədir. Ötən illərdə biz Azərbaycana ən müxtəlif təzyiqlərin, təhdidlərin şahidi olmuşuq. Müxtəlif məsələlərlə bağlı ölkə hakimiyyətinə əsassız hücumlar, təzyiqlər olub. Fəqət, Prezident məhz xalqın inamına, iradəsinə, dəstəyinə, ölkənin iqtisadi potensialına güvənərək bu təzyiqləri dəf edib. Xalqın mənafeyinə xələl gətirə biləcək heç bir anlaşmanı qəbul etməyib. Çünki möhtərəm Prezidentimizin arxasında qüdrətli və güclü dövlət, yumruq kimi birləşən xalq dayanıb. Məhz bu mənəvi birlik sayəsində ölkə başçısı antiazərbaycançı şəbəkənin hücumlarını əzmlə zərərsizləşdirib. Kiçik Azərbaycanın böyük maraqlarını təmin edib!

Azərbaycanın uğurlarından təşviş keçirən antimilli qüvvələrin sayıqlamaları, qərəzli iddiaları artıq heç bir nəticə vermir. Bu gün respublikamızda demokratik inkişafa, insan hüquqlarına olan real təminatların nəticəsidir ki, dünya əhəmiyyətli tədbirlərin keçiriləcəyi ölkənin seçimləri zamanı Azərbaycan ilklər sırasına gəlir.

Düşünürəm ki, İlham Əliyevin əldə etdiyi böyük uğurlarının əsas səbəblərindən biri də onun qətiyyətli və prinsipial rəhbər olmasıdır. Prezident qısa müddətdə Azərbaycan dövlətçiliyini hər cür cinayətkar qəsddən qorumağa qadir siyasətçi olduğunu, milli maraqlar naminə cəsarətli qərarlar qəbul etmək bacarığını nümayiş etdirib. Respublikada ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş bütün cəhdlərin qarşısı xalqın dəstəyi ilə qətiyyətlə alınıb, cəmiyyətdə barış, həmrəylik ovqatı gücləndirilib.

Prezident ən mürəkkəb siyasi şəraitdə birləşdiricilik keyfiyyətləri sayəsində xalqı öz ətrafına, ulu öndər ideyalarının cazibəsinə toplaya bilib. Ölkə başçısının ötən illərdə yürütdüyü siyasətin real, əməli fəaliyyətə söykəndiyinə hər bir vətəndaş daxilən əmin oldu. Hər kəs inandı ki, Prezident səlahiyyətlərini Heydər Əliyev kimi siyasətçidən sonra uğurla davam etdirmək, xalqın sevimli rəhbərinə çevrilmək üçün İlham Əliyevdə lazımi səriştə, bacarıq, qabiliyyət, intellektual səviyyə, idarəçilik keyfiyyətləri var.

Siyasi liderin fəaliyyətinin istər daxildə, istərsə də ölkə hüdudlarından kənarda qiymətləndirilməsi zamanı ən obyektiv istinad yeri onun gördüyü işlərdir. Bu mənada, son 13 illik dövr ilk növbədə, dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümumilikdə, ötən müddətdə Azərbaycanda həyata keçirilən siyasət bütün çalarları ilə məhz insan amilinin yüksəlişinə xidmət edir. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi altında ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlişinə xidmət edir. Bu gün məhz Prezidentin sayəsində kənd və qəsəbələrimiz şəhərə dönüb, şəhərlərimiz Qafqazın ən inkişaf etmiş yaşayış məntəqələrinə çevrilib, Bakımız isə dünyanın ən füsunkar, müasir paytaxtları sırasına qoşulub.

Ölkə başçısı bütün müdrik rəhbərlərə xas qabiliyyətlə hər kəslə dil tapmağa, dövlət məmurları ilə sadə vətəndaşlar arasındakı psixoloji səddi aradan götürməyə nail olub. Bütün bunlar dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırıb, böyük layihələri qısa zamanda gerçəkləşdirmək imkanı yaradıb.

Ötən illərdə Azərbaycan qarşıya qoyduğu hədəflərə uğurla yetişib. Ali Baş Komandanın qeyd etdiyi kimi, 25 ildə Azərbaycanın obyektiv səbəblərdən həllinə nail olmadığı bir problem var - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Dövlət başçısı bu problemin siyasi yolla həllinə çalışsa da, torpaqlarımızın azad edilməsi üçün lazımi məqamda qətiyyətli addımların atılacağını da heç zaman istina etməyib. 2016-cı ilin aprel ayının ilk günlərində xalqımız Ali Baş Komandanın bununla bağlı əzmkar və prinsipial mövqeyinin əyani şahidi oldu.

Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozaraq qoşunların təmas xəttində törətdiyi son təxribatlara - dinc əhali üçün təhlükə yaratmasına adekvat cavab olaraq Azərbaycan Ordusu düşmənə Bişkək protokolunun imzalanmasından sonrakı 22 ildə ən ağır və sarsıdıcı zərbəni vurdu. Çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin bir sıra hərbi mövqelərini ələ keçirən, hərbi obyektlərini darmadağın edən, bəzi yaşayış məntəqələrimizi işğaldan azad edən Silahlı Qüvvələrimizin əzm və rəşadəti uzun illərdir ki, bu anı gözləyən xalqımızın hədsiz sevincinə, vətənpərvərlik və milli qürur hisslərinin alovlanmasına səbəb oldu. Bir daha təsdiqləndi ki, Azərbaycan xalqının milli maraqları daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən lideri, rəhbəri var!

Prezidentin məqsədəuyğun siyasəti aprel döyüşləri zamanı Azərbaycan xalqına hərbi zəfər qazandırmağa müvəffəq oldu. Ən əsası, bu hərbi üstünlüyün siyasi nəticəsi 22 illik danışıqlar prosesindəki status-kvonu tam dəyişdirdi. Qüvvələr nisbətinin dəyişdiyi, qalibin Azərbaycan olması birmənalı sübut olundu. Bütün dünya gördü ki, Azərbaycan əsgəri qısa müddətdə Qarabağı və ətraf ərazilərimizi işğaldan azad edə bilər. Bu, məhz Ali Baş Komandanın hərbi strategiyasının nəticəsi idi!

Azərbaycanın uzun illər iqtisadi inkişaf dinamikasına, islahatların səmərəliliyinə görə dünyanın lider ölkələrindən biri olması faktı bizdə daim böyük qürur doğurub. Lakin son illər müəyyən geosiyasi səbəblərlə bağlı dünyada neftin qiymətlərinin süni şəkildə aşağı salınmasının şahidi oluruq. Bu gün qlobal böhran bütün dünyanı bürüyüb, 7-8 ildir ki, əksər ölkələrdə iqtisadi fəlakətlər, sosial təlatümlər yaşanır. Azərbaycan bu zərərli dalğadan uzun illər etibarlı şəkildə qorunmağa nail oldu. Lakin son 2 ildə dərinləşən qlobal maliyyə böhranı digər dövlətlər kimi Azərbaycana da öz təsirini göstərir. Buna təbii yanaşmaq lazımdır - respublikamız qlobal dünyadan təcrid olunmayıb. Respublikamız postneft erasına gözlənildiyindən xeyli əvvəl qədəm qoyub. Lakin əsas məsələ budur ki, ölkə rəhbərliyi yeni iqtisadi şəraitdə üzərinə düşən vəzifələri düzgün müəyyənləşdirir. Həyata keçirilən fəal anti-böhran tədbirləri, hazırlanan yol xəritələri uzunmüddətli inkişafa etibarlı zəmin yaradır.

Son iki ildə ölkəmizdə aparılan islahatlar mahiyyətcə yeni iqtisadi şəraitin formalaşmasını təmin edib. Bununla belə, yaranmış vəziyyətin bəzən yetərincə düzgün dəyərləndirilməməsi hallarına da rast gəlirik. Açıq desək, son vaxtlar devalvasiya ilə bağlı məqamlar insanlarımızda müəyyən narahatlıqlar da yaradıb. Lakin cəmiyyətdə çaşqınlıq, inamsızlıq ovqatı mövcud deyil. Xalqımız ümidsizliyə qapılmır və bu vəziyyətdən tez bir zamanda çıxacağımıza inanır. Əksəriyyət başa düşür ki, bu gün Azərbaycan digər ölkələrlə müqayisədə böhranın mənfi təsirlərini daha əzmlə dəf edir. Ən əsası, yaranmış vəziyyət xalq-iqtidar birliyini əsla zəiflətməyib. Əksinə, xalqımız dövlət başçısının Azərbaycanın bu böhrandan maksimum az itki ilə çıxması üçün göstərdiyi səyləri, fövqəladə xidmətləri yüksək qiymətləndirir.

Düşünürəm ki, İlham Əliyevin rəhbərliyi altında qazandığımız ən böyük uğurlardan biri də Azərbaycan insanının təfəkkür və düşüncə baxımından müasirləşməsi, milli və bəşəri dəyərləri uzlaşdıra bilməsidir. Bəli, 25 il bundan əvvəl dünyaya göz açan körpələr indi müstəqil Azərbaycanın 25 yaşlı, yetkin, müasir düşüncəli gənclərdir. Onlar tam olaraq müstəqillik dövründə yaşayıb, formalaşıb, bu nemətin şirinliyini dadıblar. Şəxsi qənaətim belədir ki, onlar yeni ictimai-iqtisadi formasiyada, azərbaycançılıq və müstəqillik ideyası ruhunda formalaşdıqları üçün müstəqilliyin qədrini, qiymətini orta və yaşlı nəsildən daha yaxşı bilirlər.

Müstəqil Azərbaycan hamar, düzgün yolla - Heydər Əliyev yolu ilə inamla addımlayır. Hər birimiz tam əminik ki, İlham Əliyevin müdrik siyasəti nəticəsində bu yol əbədiyyətə qədər davam edəcək.

Prezidentin rəhbərliyi altında tariximizin yeni mərhələsinə qədəm qoyuruq. Bu mərhələdə də qarşıya qoyulan bütün məqsədlərin həyata keçəcəyinə əsla, şübhə yoxdur.

Çünki İlham Əliyevə - böyük vətənpərvərimizə, liderimizə sarsılmaz inamımız, dəyişməz etimadımız var!

Azərbaycanı da güclü, qüdrətli edən məhz bu inam, etimaddır…

Fəttah HEYDƏROV,
Milli Məclisin komissiya sədri,
Azərbaycan Ağsaqqallar
Şurasının sədri